# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
# “NAXÇIVAN” UNİVERSİTETİ
# FƏNN SİLLABUSU

Təsdiq edirəm:___________Dos.N.M.Məmmədova

Tarix: 07 sentyabr 2022

| | | |
|---|---|---|
| **Fənnin təsviri** | **Fənn (adı, krediti)** | Azərbaycan dilinin tarixi qrammatikası |
| | **Fakültə** | Pedaqoji |
| | **İxtisas** | Azərbaycan dili və ədəbiyyat müəllimliyi |
| | **Səviyyə (bakalavriat, magistratura)** | Bakalavr |
| | **Kurs** | III |
| | **Semestr** | V |
| | **Təlimçi** | Qənirə İzətulla qızı Əsgərova |
| | **e-mail** | asgerovaganira@gmail.com |
| | **Telefon** | 050 377 78 69 |
| | **Dərs günləri və saatları** | II gün 2-ci saat mühazirə, V gün 2-ci saat seminar |
| **Tədris dili** | Azərbaycan | |
| **Baza/ Seçmə** | Bölmə | |
| **Tələb olunan dərsliklər və dərs materialları** | **Əsas dərsliklər və dərs vəsaitlər:**<br>1. H.Mirzəzadə “Azərbaycan dilinin tarixi qrammatikası” Bakı, 1990<br>2. Ə.Tanrıverdi “Azərbaycan dilinin tarixi qrammatikası” Bakı, 2013<br>3. N.Xudiyev “Azərbaycan dili tarixi” Bakı, 2007<br>4. Q.Əsəgrova “Azərbaycan dilinin tarixi qrammatikası” Bakı: 2009 (proqram)<br>**Əlavə ədəbiyyat**<br>Azərbaycan ədəbi dil tarixi | |
| **İstifadə ediləcək web səhifələr** | | |
| **Fənnin xülasəsi** | Azərbaycan dilinin qrammatikasının tarixi inkişafı təsvir olunur. Azərbaycan dilinin qrammatikasının inkişaf tarixi sistemli şəkildə izah olunur. Dilimizin fonetik,qrammatik inkişafi,müasir dilimizdən fərqli cəhətləri araşdırılır, dialektlərdə izlər müəyyənləşdirilir. Azərbaycan ədəbi dilinin təşəkkül dövründən müasir dövrümüzədək inkişaf xətti izlənir. | |
| **Fənnin məqsədləri** | Azərbaycan dilinin tarixi qrammatikasının öyrənilməsi məqsədlərdən biri türk dilləri ailəsinə mənsub olan dilimizin qohum dillərdən ayrılma, müstəqilləşmə və öz xüsusiyyətləri ilə müəyyənləşmə prosesini öyrənməkdir. Daha dəqiqi, məqsəd Azərbaycan dili tarixinin ümumi inkişaf qanunauyğunluqlarını sistemli şəkildə, həm də bütün müstəvilərdə öyrənməkdir. | |
| **Öyrənmə nəticələri** | Bu fənnin tədrisində bu nəticələr əldə edilir:1. Azərbaycan dilinin türk dilləri sistemində yeri, formalaşması və inkişaf dövrləri, eləcə də yayılma arealı barədə məlumat əldə edir 2. Azərbaycan dilinin tarixi qrammatikasının öyrənilməsində qədim türk abidələri, Azərbaycan yazılı və şifahi ədəbiyyatı, dialekt və şivələr, onomastik vahidlər və s. kimi mənbələrin mühüm əhəmiyyət daşıdığını öyrənirlər. 3. Azərbaycan dilinin tarixi fonetikası sistemində sait və samitlərin, fonetik hadisə və qanunların ən qabarıq cəhətlərini müəyyənləşdirir 4. Azərbaycan dilinin tarixi morfologiyası daxilində əsas və köməkçi nitq hissələrinin inkişaf tarixini tarixi-linqvistik müstəvidə öyrənir. 5. Azərbaycan dilinin tarixi sintaksisi daxilində söz birləşmələri, cümlə, cümlənin struktur –semantik təkamülü ,cümlə üzvləri və mürəkkəb cümlənin ən səciyyəvi cəhətlərini sistemli şəkildə mənimsəyir. | |
| **Tədris metodları** | **Mühazirə** | Hər bir mövzu mənimsədilir |
| | **Qrup müzakirəsi** | Tələbələrə fərdi mövzuda prezentasiyalar verilir və müzakirə aparılır |
| | **Təcrübi məşğələ** | Yeni mövzu əyani vəsaitlərin (PPT və video fayllar) nümayişi ilə izah edilməlidir |

| | | |
|---|---|---|
| | **Simulyasiya** | Tələbələrə dərsə aid nümunələr üzərində praktiki iş aparılmalı, simulyasiya proqramlarından istifadə edilərək nəticələr qeyd edilməlidir |
| | **Layihə** | |
| | **Digər** | |
| **Qiymətləndirmə** | **Mövzunun mənimsənilməsi** | **Faiz nisbəti (%) və ya bal** |
| | Balların maksimum miqdarı | 100 bal |
| | 1. Semestr ərzində toplanmış maksimum bal | 50 bal (50%) |
| | - Dərsə davamiyyətə görə maksimum bal | 10 bal (10%) |
| | - Tələbələrin sərbəst işinə görə maksimum bal | 10 bal (10%) |
| | - Seminar və laboratoriya dərslərinin nəticələrinə görə maksimum bal | 30 bal (30%) |
| | **Qeyd: seminar dərslərində tələbənin jurnalda ən azı 3 (üç qiyməti olduğu halda, ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə tələbəyə bal hesablanmır.** | |
| | 2. İmtahan nəticələrinə görə maksimum bal | 50 bal (50%) |
| | 3. Fənnin mənimsənilməsi qaydası: semestr ərzində imtahan nəticəsinə görə toplanan balların cəmi 50-dən yuxarı olan tələbələr fənni mənimsəmiş hesab edilir.<br>- 51 baldan aşağı – "qeyri kafi" – F<br>- 51 – 60 - "qənaətbəxş" – E<br>- 61 – 70 – "kafi" – D<br>- 71 – 80 – "yaxşı" – C<br>- 81 – 90 – "çox yaxşı" – B<br>- 91 – 100 – "əla" | |
| | **Cəmi:** | **100 bal (100%)** |
| **Qiymətləndirmə metodları** | **Tapşırıqlar:** Sərbəst iş mövzuları verilir və semester sonu yoxlanılıb qiymətləndirilir.<br>**1.** İ.Nəsinin əsərlərində köməkçi nitq hissələri<br>**2.** Qrammatik kateqoriyalar.İ.Nəsiminin qəzəlləri üzrə<br>**3.** İ.Nəsimi əsərlərində əvəzliklərin işlənmə məqamları<br>**4.** Ş.İ.Xətayi dilində tabeli mürəkkəb cümlələr<br>**5.** İ.Nəsimi dilində qoşma və nidalar<br>**6.** M.Füzulinin dilində söz birləşmələri və izafətlər<br>**7.** Ş.İ.Xətayinin dilində sual və işarə əvəzlikləri<br>**8.** Feilin zaman kateqoriyası (Ş.İ.Xətayinin əsərləri üzrə)<br>**9.** Q.Bürhanəddinin əsərlərində ismin quruluşca növləri.<br>**10.** Q.Bürhanəddinin əsərlərində tabeli mürəkkəb cümlə<br>**11.** XV əsr Azərbaycan ədəbi dilində tabeli mürəkkəb cümlələr<br>**12.** M.P.Vaqif dilində felin şəkilləri<br>**13.** Q.Bürhanəddinin dilində felin təsriflənməyən formaları<br>**14.** XVI əsr dilində sadə cümlə<br>**15.** Tabeli mürəkkəb cümləni bağlayan vasitələr və müasir dildən fərqli cəhətləri<br>**16.** Kitabi-Dədə Qorqud dastanında tabesiz mürəkkəb cümlələr<br>**17.** Ş.İ.Xətayinin yaradıcılığında düzəltmə sifətlər<br>**18.** İ.Nəsiminin dilində sayların işlənmə məqamları<br>**19.** İsmə aid qrammatik kateqoriyalar.(XIV-XV əsr dili üzrə)<br>**20.** M.Füzulinin yaradıcılığında ismin quruluşca növləri<br>**21.** Q.Bürhanəddinin əsərlərində tabesiz mürəkkəb cümlə<br>**22.** İ.Nəsimi əsərlərində qoşma və bağlayıcılar<br>**23.** M.P.Vaqifin əsərlərində felin zaman kateqoriyası<br>**24.** Ş.İ.Xətayi dilində əvəzliklər.<br>**25.** M.Füzulinin dilində tabesiz mürəkkəb cümlə<br>**26.** M.Füzulinin dilində əvəzliklər müasir dildən fərqli cəhətlər<br>**27.** Ş.İ.Xətayi dilində söz birləşmələri | |

<table>
<tr><td></td><td colspan="3">28. İ.Nəsiminin əsərlərində  tamamlıq budaq cümləsi<br>29. Ş.İ.Xətayi dilində köməkçi nitq hissələri<br>30. M.Ə.Sabirin dilində köməkçi nitq hissələri<br>31. İ.Nəsiminin dilində saylar<br><br>Təqdimat: Slaydlarla hazırlanan mövzular təqdimat şəklində sunulur və qiymətləndirilir</td></tr>
<tr><td>Qaydalar</td><td colspan="3">Davamiyyət: Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>Buraxılmış imtahan və ya tapşırıqlar: Tələbə planlaşdırılan təqdimatda və ya imtahanda iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat verməlidir. Tam sinif iştirakı və təyin olunmuş ev tapşırığını yerinə yetirilməsi gərəklidir.<br>Tədqiqat işlərində, hazırlanmış layihələrdə istifadə olunan mənbələrə istinad verilməlidir. Bununla birlikdə, tələbə tərəfindən təhlil edilmədən, yalnız istinad və sitatlardan ibarət olan hər hansı bir tədqiqat işi qəbul edilə bilməz.<br>Testlər zamanı köçürmə, təyin edilmiş qaydalara tabe olunmadığı təqdirdə tələbə imtahan nəticəsinin ləğv olunmağı ehtimalı daxil olmaqla cəzalandırılacaqdır.<br>Təqdimatların / layihə sənədlərinin mövzuları fənni tədris edən müəllim tərəfindən əvvəlcədən müəyyənləşdiriləcəkdir. Müəllim ilə əvvəlcədən razılaşdırıldığı təqdirdə digər tələbələrlə əməkdaşlığa icazə verilə bilər.</td></tr>
<tr><td colspan="4">Tematik plan</td></tr>
<tr><td>Həftə</td><td>Tarix</td><td>Mövzular</td><td>Dərslik / Tapşırıq / Ədəbiyyat</td></tr>
<tr><td>1</td><td>20.09.2022</td><td>Azərbaycan dilinin tarixi fənninin mövzusu, mənbələri<br>Qısa icmalı: Azərbaycan dilinin tarixi vəzifələrindən biri türk dilləri ailəsinə mənsub olan Azərbaycan dilimizin qohum dillərdən ayrılma, müstəqilləşmə və öz xüsusiyyətlərilə müəyyənləşmə prosesini öyrənməkdir. Azərbaycan dilinin tarixinin əsas mənbələri türk dillərinin tarixi-linqivistik müstəvidə tədqiqində əsas mənbəyə çevrilən “Orxon” “Yenisey” anidələri Mahmud Kaşğarinin “Divanü lüğat-it türk” əsəri “Kitabi Dədə Qorqud” dastanları, Azərbaycan dilinin dialektləri, Azərbaycan dilinin şifahi və yazılı ədəbi mənbələri, qohum dillər və s. daxildir.”Divanü-lüğat-it türk” ‚KDQ” dastanındakı sözləri müasir dil ilə müqayisəsi tarixi fonetika və tarixi leksikologiya baxımından çox əhəmiyyətlidir.Burdakı sözlərin dialeklərdə işlənməsinə diqqət yetirilir.”KDQ” dastanının fonetik,leksik,morfoloji və sintaktik xüsusiyyətlərinin incələnbməsi dilimizin tarixini daha dəqiqliklə öyrənməyə imkan verir.</td><td>1. H.Mirzəzadə “Azərbaycan dilinin tarixi qrammatikası” B:1993<br>2. A.Axundov “Azərbaycan dilinin tarixi fonetikası” B:1972<br>3. Ə.Tanrıverdi “Azərbaycan dilinin tarixi qrammatikası”B:2013. səh. 15-46<br>4. Q.Kazımov “Azərbaycan dili tarixi” B:2013<br>5. Q.Əsgərova  Proqram (Azərbaycan dilinin tarixi qrammatikası) B:2010<br>6. Q.Əsgərova “Əvəzliklərin tədrisi məsələsi”<br>7. Ədəbi dil tarixi 4 c. AMEA nəşri,Bakı,2007</td></tr>
<tr><td>2</td><td>27.09.2022</td><td>Tarixi fonetika<br>Qısa icmalı:Saitlər, samitlər onların fərqli xüsusiyyətləri mənimsədilir, tarixən dilimizdə 25 samit olmuşdur.velyar ή  samit, (sağır nun), nq  samitləri,.Tarixən samtlər əvəzləmələr olmuşdur.b>v,b>m,d>t, q>x>h..Söz önündə -h səsi demək olar ki, müşahidə olunmur..Bu xüsusiyyət qərb çivələrində özünü</td><td>1. H.Mirzəzadə “Azərbaycan dilinin tarixi qrammatikası” B:1993<br>2. A.Axundov “Azərbaycan dilinin tarixi fonetikası” B:1972<br>3. Ə.Tanrıverdi “Azərbaycan dilinin tarixi qrammatikası”B:2013 səh. 124</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | | göstərir.”Divan” da “KDQ”- da rast gəlirik.Ökür-ökür ağlamaq.Sual əvəzliklərundə də müşahidə olunur.Sözün əvvəlində -ğ səsinin işlənmişdir.- ğərb,ğəliz..Söz daxilində r>z əvəzlənmələri görükür>gözükür,yuxu yormaq>yuxu yozmaq .”KDQ” rast gəldiyimiz bu cəhətlərə Quba şivəsində müşahidə olunur..g>y əvəzlənmələri : yenə - genə.Cənub dialect və şivələrində özünü göstərir. diftonqlar, fonetik hadisələr, (assimilasiya, proteza, metateza, sinkopa), fonetik qanunlar: labiallaşma (qarşu yatan qara tağıŋı aşmağa gəlmişəm) və delabiallaşma ( Apardı könlümi bir xoş qəməryüz,cxanfəza dilbər) öyrədilir. | 4. Q.Kazımov “Azərbaycan dili tarixi” B:2013<br>5. Q.Əsgərova Proqram (Azərbaycan dilinin tarixi qrammatikası) B:2010<br>6. Q.Əsgərova “Əvəzliklərin tədrisi məsələsi”<br>7. Ədəbi dil tarixi 4 c. AMEA nəşri,Bakı,2007 |
| **3** | 04.10.2022 | **Tarixi morfologiya.İsim**<br>**Qısa icmalı:** Tarixi morfologiya dilin morfoloji quruluşunu, nitq hissələrinin morfoloji xüsusiyyət lərini tarixi aspektdə tədqiq edib öyrənir. Hər bir nitq hissəsi,özünəməxsus morfoloji əlamətlərinə görə əsasən sabit qalır.Lakin zaman keçdikcə bunlar,az da olsa, dəyişikliyə uğrayır, dəqiqləşir, qrammatik quruluşun keyfiyyətcə yaxşılaşmasına səbəb olur. Ün, yazı, uçmaq kimi arxaikləşmiş isimlər vardır. İsmin quruluşca növləri əsasən dəyişikliyə məruz qalmamışdır.Türk məənşəli şəkilçilərlə (-çı,-lıq,daş-taş,çıq və s.)feildən isim düzəldən şəkilçilırimiz eynidir,(aq,anaq-ənək,-ı4,-ma,mac ,=məc) ərəb,fars mənşəli şəkilçilərlə də ism düzəldilmişdir. Qrammatik kateqoriyalardan kəmiyyət kateqoriyası müasir dildən fərqlənmir. Mənsubiyyət kateqoriyasında yiyəlik yönlük və təsirlik hallarda n<v səs əvəzlənməsinə rast gəlirik. Xəbərlik kateqoriyası III şəxsdə “durur” forması işlənmişdir. | 1. H.Mirzəzadə “Azərbaycan dilinin tarixi qrammatikası” B:1993<br>2. A.Axundov “Azərbaycan dilinin tarixi fonetikası” B:1972<br>3. Ə.Tanrıverdi “Azərbaycan dilinin tarixi qrammatikası”B:2013. səh.185<br>4. Q.Kazımov “Azərbaycan dili tarixi” B:2013<br>5. Q.Əsgərova Proqram (Azərbaycan dilinin tarixi qrammatikası) B:2010<br>6. Q.Əsgərova “Əvəzliklərin tədrisi məsələsi”<br>7. Ədəbi dil tarixi 4 c. AMEA nəşri,Bakı,2007 |
| **4** | 11.10.2022 | **Sifət. Tarixi inkişafı.Say**<br>**Qısa icmalı:** Tarixən sifətlər müəyyən dəyişikliyə məruz qalmışdılar. Bir sıra arxaikləşmiş sifətlər, o cümlədən sayru, arı, al, qızıl (qırmızı mənasında) mövcuddur. Sifətlərdə quruluşca üç növə ayrılmışdır. Alınma şəkilçilərin bəziləri bugünkü dilimiz üçün arxaikləşmişdir. Sifətin dərəcə kateqoqriyası müasir dildən fərqlənir, azaltma dərəcəsinə tarixən rast gəlmirik. Sifətin çoxaltma dərəcəsini iki növünə rast gəlirik:- ca və - raq şəkilçi nisbət növü mövcuddur. Saylar. Saylar tarixən ciddi dəyişikliyə məruz qalmamışdır. Sayların mənaca növləri mənimsədilir. Müasir dilimiz üçün arxaikləşmiş bölüşdürmə sayları (paylama) tarixən işlənmişdir. Ar, ər, şar, şər şəkiliçisi ilə düzəlmişdir. | 1. H.Mirzəzadə “Azərbaycan dilinin tarixi qrammatikası” B:1993<br>2. A.Axundov “Azərbaycan dilinin tarixi fonetikası” B:1972<br>3. Ə.Tanrıverdi “Azərbaycan dilinin tarixi qrammatikası”B:2013 səh 229, 243<br>4. Q.Kazımov “Azərbaycan dili tarixi” B:2013<br>5. Q.Əsgərova Proqram (Azərbaycan dilinin tarixi qrammatikası) B:2010<br>6. Q.Əsgərova “Əvəzliklərin tədrisi məsələsi”<br>7. Ədəbi dil tarixi 4 c. AMEA nəşri,Bakı,2007 |

| | | | |
|---|---|---|---|
| **5** | 18.10.2022 | **Əvəzliklər**<br>**Qısa icmalı**: Tarixən əvəzliklər işlək olmuşdur. Müasir dilimizdən fərqlənir. Şəxs əvəzlikləri mən bən variantında, II şəxsin təkində sən, sen, III şəxsin təki ol variantında işlənmişdir. H – samiti ilə başlayan sual əvəzlikləri h>q>x>ğ səsləri əvəz olunmuşdur. Kəndi, kəndöüz qayıdış əvəzliklərinə rast gəlirik. Qamu, cümlə,vari təyini əvəzlikləri işlənmişdir. Qamu eyni zamanda qeyri-müəyyən əvəzlik kimi işlənmişdir. Müasir dilimiz üçün arxaikləşmiş işarə əvəzliklərinə rast gəlirik. Uş, şol, uşbu, böylə, öylə,qancaru- hancaru və s.Mən əvəzliyinin protipi -ba,-be,biz əvəzliyini bi,-z cəmlik bildirmişdir. Səv -sa,-se,siz -si, vəs. Sən əvəzliyinin yerinə -siz işlənməsinə “Divan”da, Nəsiminin dilində,M.F.Axundovun əsərlərində təsdüf edirikTəyini əvəzlik-qamu həm də qeyri-müəyyən əvəzlik kimi işlənir.-vari təyini əvəzlyi XV -XVI əsrlərdə işlənmişdir. | 1. H.Mirzəzadə “Azərbaycan dilinin tarixi qrammatikası” B:1993<br>2. A.Axundov “Azərbaycan dilinin tarixi fonetikası” B:1972<br>3. Ə.Tanrıverdi “Azərbaycan dilinin tarixi qrammatikası”B:2013 səh.257<br>4. Q.Kazımov “Azərbaycan dili tarixi” B:2013<br>5. Q.Əsgərova Proqram (Azərbaycan dilinin tarixi qrammatikası) B:2010<br>6. Q.Əsgərova “Əvəzliklərin tədrisi məsələsi”<br>7. Ədəbi dil tarixi 4 c. AMEA nəşri,Bakı,2007 |
| **6** | 25.10.2022 | **Feil.Felin şəkillərinin tarixi inkişafı**<br>**Qısa icmalı:** Feil bəhsi müəyyən dəyişikliyə məruz qalmışdır. Prefrastik feil formalarından feilin bacarıq şəkli müasir dövrümüzə qədər gəlib çatmışdır. Feilin əmr şəklinin özünəməxsus şəkilçiləri olmuşdur. Feilin zamanları müəyyən dəyişikliklər vardır. Nəqli keçmiş zamanın $ıb^4$ şəkilçisi I şəxsin təkində işlənmişdir. İndiki zaman adur, ədur formalarında işlənmişdir. I şəxsin inkarı qeyri qəti-gələcək zamanın inkarı formasındadır. Felin arzu şəkli müxtəlif mənalar ifadə etmişdir: hərəkətin məqsədini,səbəbini bildirmiş(Rəf eyləyə ortadan hicabın); güman edilən hadisəni bildirir (Gılin oğlanı babasına qovlayalım,ola kim öldirə),şırt bildirir-Xəncər ilən yürəgimi yarə səndən dönməzəm) vəs.. Vacib şəkli əsasən gərək + məsdər forması ilə düzəlmişdir. Gərək ədatə+ arzu şəkli (Gözdən gərək olasan nihan sən),yalnız gərk ədatı ilə (Aləmdə mən xəstəyə bir yar gərək) =malı şəkilçisi ilk dəfə Ş.İ.Xətayidə işlənmişdir.Əmr şəklini özünəməxsus şəkilçiləri olmuşdur.I-ayın,əyın,ım, cəmdə-alım,-əlim,avuz,=əvuz;II şəxsdə gil,ğıl,gilən,=ginən,III şəxsdə, -sın ;-a+ gör,ı+gör,-a + görgil və sanalitik yollarla yaranmışdır. | 1. H.Mirzəzadə “Azərbaycan dilinin tarixi qrammatikası” B:1993<br>2. A.Axundov “Azərbaycan dilinin tarixi fonetikası” B:1972<br>3. Ə.Tanrıverdi “Azərbaycan dilinin tarixi qrammatikası”B:2013 səh 273<br>4. Q.Kazımov “Azərbaycan dili tarixi” B:2013<br>5. Q.Əsgərova Proqram (Azərbaycan dilinin tarixi qrammatikası) B:2010<br>6. Q.Əsgərova “Əvəzliklərin tədrisi məsələsi”<br>7. Ədəbi dil tarixi 4 c. AMEA nəşri,Bakı,2007 |
| **7** | 01.11.2022 | **Felin təsriflənməyən formaları**<br>**Qısa icmalı:** Feilin təsriflənmyən formaları da müasir dildən müəyyən qədər fərqlənir. Məsdər ağır, xəfif (yüngül), adi məsdər. Feli sifət ciddi dəyişikliyə məruz qalmamışdır.-an,=ən,-ar,-ər -acaq,-əcək və s şəkilçilərlə düzəlir-dıq feli sifət şəkilçisi müasir dilimizdə mənsubiyyət şəkilçisi ilə işlənir.Tarixən mənsubiyyət şəkiolçisi olmadan işlənməsinə təsadüf edirik Məs.Taş qopduğ yerdə ağır olur (Oğuznamə).Bu gün “ durduq yerdə sənə dedi” cümləsində təsadüf edirik..Substantivləşə | 1. H.Mirzəzadə “Azərbaycan dilinin tarixi qrammatikası” B:1993<br>2. A.Axundov “Azərbaycan dilinin tarixi fonetikası” B:1972<br>3. Ə.Tanrıverdi “Azərbaycan dilinin tarixi qrammatikası”B:2013 səh 292<br>4. Q.Kazımov “Azərbaycan dili tarixi” B:2013<br>5. Q.Əsgərova Proqram (Azərbaycan dilinin tarixi |

| | | | |
|---|---|---|---|
| | | bilir. Feli bağlama şəkilçiləri – ıban-madın-mədin-cağaz şəkilçiləri arxaikləşmişdir. Bu gün şərq dialektində ıban şəkilçilərinə təsadüf olunur. Müasir dildən fərqli olaraq dıqca$^4$ şəkilçisi mənsubiyyət şəkilçisi ilə işlənmişdir. | qrammatikası) B:2010<br>6. Q.Əsgərova “Əvəzliklərin tədrisi məsələsi”<br>7. Ədəbi dil tarixi 4 c. AMEA nəşri,Bakı,2007 |
| **8** | 15.11.2022 | **Zərf**<br>**Qısa icmalı**: Tarixən əvəzliklər işlək olmuşdur. Müasir dilimizdən fərqlənir. Şəxs əvəzlikləri mən bən variantında, II şəxsin təkində sən, sen, III şəxsin təki ol variantında işlənmişdir. H – samiti ilə başlayan sual əvəzlikləri h>q>x>ğ səsləri əvəz olunmuşdur. Kəndi, kəndöüz qayıdış əvəzliklərinə rast gəlirik. Qamu, cümlə,vari təyini əvəzlikləri işlənmişdir. Qamu eyni zamanda qeyri-müəyyən əvəzlik kimi işlənmişdir. Müasir dilimiz üçün arxaikləşmiş işarə əvəzliklərinə rast gəlirik. Uş, şol, uşbu, böylə, öylə,qancaru- hancaru və s.Mən əvəzliyinin protipi -ba,-be,biz əvəzliyini bi,-z cəmlik bildirmişdir. Səv -sa,-se,siz -si, vəs. Sən əvəzliyinin yerinə -siz işlənməsinə “Divan”da, Nəsiminin dilində,M.F.Axundovun əsərlərində təsdüf edirikTəyini əvəzlik-qamu həm də qeyri-müəyyən əvəzlik kimi işlənir.-vari təyini əvəzlyi XV -XVI əsrlərdə işlənmişdir. | 1. H.Mirzəzadə “Azərbaycan dilinin tarixi qrammatikası” B:1993<br>2. A.Axundov “Azərbaycan dilinin tarixi fonetikası” B:1972<br>3. Ə.Tanrıverdi “Azərbaycan dilinin tarixi qrammatikası”B:2013 səh 320<br>4. Q.Kazımov “Azərbaycan dili tarixi” B:2013<br>5. Q.Əsgərova Proqram (Azərbaycan dilinin tarixi qrammatikası) B:2010<br>6. Q.Əsgərova “Əvəzliklərin tədrisi məsələsi”<br>7. Ədəbi dil tarixi 4 c. AMEA nəşri,Bakı,2007 |
| **9** | 22.11.2022 | **Köməkşi nitq hissələri.Qoşma. Bağlayıcı**<br>**Qısa icmalı:** Qoşmanın mənşəyi, daşıdığı vəzifə və ifadə etdiyi məna, tarixi inkişaf nöqteyi - nəzərindən öyrənilməyə ehtiyacı olan məsələlərdəndir. Çünki bu nitq hissəsi öz söz ehtiyatının azlığı cəhətdən bütün nitq hissələrindən kiçik də olsa, öz əhəmiyyəti etibarilə, demək olar ki, başqalarından heç də geri qalmır. Qoşmalar bütün dövrlərdə öz orijinallığını mühafizə etdiyi kimi, zaman keçdikcə inkişaf edərək, keyfiyyətcə saflaşmış, bir sıra yeni sözlərlə zənginləşmiş, arxaikləşmiş qoşmalardan da təmizlənmişdir,qoşmaların bəziləri müəyyən dəyişik liyə məruz qalmışdır. Bərlü, ilən, dəkin, asa, cılayn, ciləyin, cələyin. qərb dialektində bu qoşmalar özünü göstərir. Səmt qoşması hal şəkilçili sözdən əvvəl işlənmişdir. Məsafə bildirən -dəkin ,təkin qoşması.H.Mirzəzadə bu qoşmanın -dəkm<br>Dəkmək felindən törəndiyini ehtimal edir.-din variantı işlənir.-tən variantı da mıvcuddur.ərəb mənşəli asa,fars mənşəli misalı bənzətmə qoşmaları olmuşdur.Fərqlənmə bildirən ayri-ayru,qeyri-ğeyri formasında da işlənmişdir. Azərbaycan dilində işlənən bağlayıcılar məna xüsusiyyətlərinə görə başlıca olaraq iki qrupa bölünür: 1) Tabesiz bağlayıcılar: əmma, və lakin, vəli, vəleykin. xah 2) Tabeli bağlayıcılar., hərgiz, , gərçi, gərçe bağlayıcıları müəyyən fonetik dəyişikliyə məruz qalmış, yaxud arxaikləşmişdir. | 1. H.Mirzəzadə “Azərbaycan dilinin tarixi qrammatikası” B:1993<br>2. A.Axundov “Azərbaycan dilinin tarixi fonetikası” B:1972<br>3. Ə.Tanrıverdi “Azərbaycan dilinin tarixi qrammatikası”B:2013 səh 331,143<br>4. Q.Kazımov “Azərbaycan dili tarixi” B:2013<br>5. Q.Əsgərova Proqram (Azərbaycan dilinin tarixi qrammatikası) B:2010<br>6. Q.Əsgərova “Əvəzliklərin tədrisi məsələsi”<br>7. Ədəbi dil tarixi 4 c. AMEA nəşri,Bakı,2007 |

| | | | |
|---|---|---|---|
| | | Yazılı abidələrin dilində qarşılaşdırma bağlayıcılarından yoxsa,fəqət,halbuki aktiv olmamışlar.Tabeli bağalyıcılardan ki -kim varaintinda işlənmiş,səbəb bağalyıcıları zira ,zira kim,çün çünkim variantlarına təsadüf edirik. | |
| **10** | 29.11.2022 | **Ədat .Modal sözlər və nida**<br>**Qısa icmalı:**<br>Ədat. Cümlədə sözlərin təsir gücünü artırmaq məqsədi ilə işlədilir. XVIII əsrə qədər dilimizdə işlənən ədatları üç qrupa ayıra bilərik: türmənşəli,fars və ərəb mənşəli ədatlar.Bir sıra arxaikləşmiş ədatlar mövcuddur. Bunlara biz bəzi dialektlərimizdə rast gəlirik. Haşa (həm ədat, həm modal söz kimi işlənir), əcaba, leyk, iştə, üştə, oş, üş.Həp ədatı olmuşdur ,amma aktiv deyildir.Ş.İ.Xətayinin dilində bir dəfə rast gəlinir. Bari fars mənşəli ədat əsasən Kitabi Dədə Qorqud dastanında rast gəlirik. Az da olsa hərgiz dastanında rast gəlirik. Bu ədat istisna olunmaqla digərlərinə bütün dövrlərdə rast gəlirik.Ədatın məna növləri müasir dilimidə olduğu kimidir. | 1. H.Mirzəzadə “Azərbaycan dilinin tarixi qrammatikası” B:1993<br>2. A.Axundov “Azərbaycan dilinin tarixi fonetikası” B:1972<br>3. Ə.Tanrıverdi “Azərbaycan dilinin tarixi qrammatikası”B:2013 səh 352, 360<br>4. Q.Kazımov “Azərbaycan dili tarixi” B:2013<br>5. Q.Əsgərova Proqram (Azərbaycan dilinin tarixi qrammatikası) B:2010<br>6. Q.Əsgərova “Əvəzliklərin tədrisi məsələsi”<br>7. Ədəbi dil tarixi 4 c. AMEA nəşri,Bakı,2007 |
| **11** | 06.12.2021 | **Tarixi sintaksis.Söz birləşmələri**<br>**Qısa icmalı:** Azərbaycan dilinin sintaksisi də çox maraqlı bir inkişaf prosesi keçmişdir. Qeyd etməliyik ki, XVII-XVIII əsr Azərbaycan ədəbi dilində də müşahidə olumnuş təyini söz birləşmələri, onların quruluşu, əmələ gəlmə yolları da həqiqətən müasir növlərindən fərqlənmir. Faktlar bir daha göstərir ki, sintaksis, daha doğrusu, dilimizin sintaktik tərkibi tarixən çox qədimdən təşəkkül edərək formalaşmış bir kateqoriyadır. Beləliklə, söz birləşmələrinin üç növü: 1) birinci növ təyini söz birləşməsi; 2) ikinci növ təyini söz birləşməsi; 3) üçüncü növ təyini söz birləşməsi. təyini söz birləşmələrinə daxil olmayan ismi birləşmələr də mənimsədilir.Birinci növ təyini söz birləşmələrinin I tərəfi müəyyən miqdar sayı il ifadə olunduqda II tərəf əsasən uzlaşma daxil olur. Ol qırx namərdlər aydır.II tərəf cəm şəkilçisi qəbul edir.II və III növ təyini söz birləşmələri hallandıqda təsirlik halda hal şəkilçisi düşür,bitişdirici samit qalır.II növ bəzən III növü əvəz etmişdir .III növ ismi birləşmələrdə tərəflər yerini dəyişə bilir.Fars və ərəb mənşəli izafətlər də öyrədilir. Feli birləşmələr tarixən də işlənmişdir.Ad+ feil ,feil+feil ,zərf+ feil birləşmələr. | 1. H.Mirzəzadə “Azərbaycan dilinin tarixi qrammatikası” B:1993<br>2. A.Axundov “Azərbaycan dilinin tarixi fonetikası” B:1972<br>3. Ə.Tanrıverdi “Azərbaycan dilinin tarixi qrammatikası”B:2013 səh 369<br>4. Q.Kazımov “Azərbaycan dili tarixi” B:2013<br>5. Q.Əsgərova Proqram (Azərbaycan dilinin tarixi qrammatikası) B:2010<br>6. Q.Əsgərova “Əvəzliklərin tədrisi məsələsi”<br>7. Ədəbi dil tarixi 4 c. AMEA nəşri,Bakı,2007 |

| | | | |
|---|---|---|---|
| **12** | 13.12.2022 | **Məqsəd və intonasiyaya görə sadə cümlə. Cümlə üzvləri**<br>**Qısa icmalı:**Azərbaycan ədəbi dilində aşağıdakı cümlə növləri müşahidə olunmuşdur: 1. Nəqli cümlə. 2. Sual cümləsi.3. Əmr cümləsi. 4. Nida cümləsi. törəmə nidalarla yaranan cümlələrə daha çox təsadüf edilir.Nəqli cümlələr müasie dildən fərqlənmir. Sual cümlələri intonasiya,sual ədatları və sual əvəzlikləri ilə düzəlir.<br>Sual ədatları əsasən bəs-pəs,-mı,məgər ədatları ilə yaranmışdır.Əmr cümlələrin xəbəri əsasən felin əmr şəkli ilə ifadə olunur.Nida cümlələri nidaların ,xitabların,leksik -semantik vasitələrlə yaranır. Cümlə üzvləri baş və ikinci dərəcəli olaraq bölünür. Baş üzvlər mübtəda, xəbər. İkinci dərəcəli üzvlər tamamlıq. Təyin, zərflikdir və onların ifadə vasitələri müasir dildən fərqlənmir, ancaq zərfliklər təsriflənən feillərlə ifadə oluna bilmişdir. | 1. H.Mirzəzadə "Azərbaycan dilinin tarixi qrammatikası" B:1993<br>2. A.Axundov "Azərbaycan dilinin tarixi fonetikası" B:1972<br>3. Ə.Tanrıverdi "Azərbaycan dilinin tarixi qrammatikası"B:2013 səh 387, 401<br>4. Q.Kazımov "Azərbaycan dili tarixi" B:2013<br>5. Q.Əsgərova Proqram (Azərbaycan dilinin tarixi qrammatikası) B:2010<br>6. Q.Əsgərova "Əvəzliklərin tədrisi məsələsi"<br>7. Ədəbi dil tarixi 4 c. AMEA nəşri,Bakı,2007 |
| **13** | 20.12.2022 | **Cümlə. Sadə cümlənin struktur-semantik təkamülü. Bir baş üzv əsasında formalaşan cümlələr**<br>**Qısa icmalı:**Sadə cümlənin şəxsə görə növləri: Müəyyən, qeyri-müəyyən, şəxsiz, ümumişəxsli, adlıq cümlələr öyrədilir. Qeyri-müəyyən şəxsli cümlələr KDQ -da daha aktivdir.XIX əsrə qədər adlıq cümlələr çox az təsadüf edilir.Cümlə üzvələri müasir dilimizdən cidi fərqlərə məruz qalmamışdır.Baş üzvlər mübtəda və xəbər.Şəxs sonluqlarında fərqlilik özünü göstərir İ şəxsin cəmi infdikiz amanda -iz şəkilçisi işlənmə variantına təsadüf edirik.İkinci dərəcəli üzvlər fərqli deyillər.feilin təsriflənən formaları zərflik kimi işlənə bilmişdir.Oğlanı uzanır gördüm. | 1. H.Mirzəzadə "Azərbaycan dilinin tarixi qrammatikası" B:1993<br>2. A.Axundov "Azərbaycan dilinin tarixi fonetikası" B:1972<br>3. Ə.Tanrıverdi "Azərbaycan dilinin tarixi qrammatikası"B:2013 səh 425<br>4. Q.Kazımov "Azərbaycan dili tarixi" B:2013<br>5. Q.Əsgərova Proqram (Azərbaycan dilinin tarixi qrammatikası) B:2010<br>6. Q.Əsgərova "Əvəzliklərin tədrisi məsələsi"<br>7. Ədəbi dil tarixi 4 c. AMEA nəşri,Bakı,2007 |
| **14** | 27.12.2022 | **Tabesiz mürəkkəb cümlə**<br>**Qısa icmalı:** Müxtəlif dövrlərin ədəbi dilini xarakterizə edən əsərlərin dilini nəzərdən keçirdiyimiz zaman tabesizlik əlaqəsi ilə düzələn mürəkkəb cümlələrdə aşağıdakı məna əlaqələrin olduğunu görə bilərik: qarşılaşdırma, aydınlaşdırma, bölüşdürmə, səbəb-nəticə, zaman, müqayisə-bənzətmə. Müasir dildə olduğu kimi bağlayıcılı tabesiz mürəkkəb cümlələr mövcuddur. Müasir dildən fərqli cümlələri araşdırılır.Qarışıq tipli tabesiz mürəkkəb cümlələrin müxtəlif tiplərinə rast gəlinir.KDQ dastanında işlənən tiplər əsasən araşdırılır tərəflərin biri sadə,digəri mürəkkəb olan və hər iki tərəfi mürəkkəb olan.1.varayım oğluma doğru xəbər verəyim,hünəri varsa ,gəlsün.2.Boyni uzun bədəvi atlar gedərsə, səni gedər.Bənim də içimdə binədim var, Qomaqım yoq qırq namərdə!. | 1. H.Mirzəzadə "Azərbaycan dilinin tarixi qrammatikası" B:1993<br>2. A.Axundov "Azərbaycan dilinin tarixi fonetikası" B:1972<br>3. Ə.Tanrıverdi "Azərbaycan dilinin tarixi qrammatikası"B:2013 səh 436<br>4. Q.Kazımov "Azərbaycan dili tarixi" B:2013<br>5. Q.Əsgərova Proqram (Azərbaycan dilinin tarixi qrammatikası) B:2010<br>6. Q.Əsgərova "Əvəzliklərin tədrisi məsələsi"<br>7. Ədəbi dil tarixi 4 c. AMEA nəşri,Bakı,2007 |

| | | | |
|---|---|---|---|
| **15** | .12.2022 | **Tabeli mürəkkəb cümlə**<br>**Qısa icmalı:** tabeli mürəkkbə cümlənin yaranma yolları müasir dildə olduğu kimidir. Lakin bir çox bağlayıcılar müasir dövrdən fərqlənir.Asindetik( intonasiya), analitik (bağlayıcı və ya bağlayıcı söz),sintetik tip (-sa,-sə),analitik-sintetrik tip işlənmişdir.budaq+ baş tipi daha aktiv olmuşdur.Baş- budaq tipləri də işlənmişdir. Mübtəda budaq cümləsində hər kəs, hər nə bağlayıcıları işlənməmişdir. Xəbər budaq cümləsində qəlib söz oldur variantında işlənə bilir. Tamamlıq, təyin budaq cümlələri müasir dildən əsasən fərqlənmir. Zərflik budaq cümlələrin bağlanma vasitələri, bu bağlanma vasitələri müxtəlif zərflik budaq cümlələrini yaratdığını mənimsədirik. Həm zaman həmdə səbəb budaq cümləsini yaradan ta, çün bağlayıcıların rolu müəyənləşdirilir. | 1. H.Mirzəzadə "Azərbaycan dilinin tarixi qrammatikası" B:1993<br>2. A.Axundov "Azərbaycan dilinin tarixi fonetikası" B:1972<br>3. Ə.Tanrıverdi "Azərbaycan dilinin tarixi qrammatikası"B:2013səh 442<br>4. Q.Kazımov "Azərbaycan dili tarixi" B:2013<br>5. Q.Əsgərova Proqram (Azərbaycan dilinin tarixi qrammatikası) B:2010<br>6. Q.Əsgərova "Əvəzliklərin tədrisi məsələsi"<br>7. Ədəbi dil tarixi 4 c. AMEA nəşri,Bakı,2007 |

| **Sıra N-sı** | **Seminar**<br>**Mövzuların adı** | **Saat** | **Tarix** |
|---|---|---|---|
| 1 | Azərbaycan dilinin tarixi fənninin mövzusu, mənbələri | 2 | 16.09.2022 |
| 2 | Tarixi fonetika | 2 | 23.09.2022 |
| 3 | Tarixi morfologiya.İsim | 2 | 30.09.2022 |
| 4 | Sifət. Tarixi inkişafı.Say | 2 | 07.10.2022 |
| 5 | Əvəzliklər | 2 | 14.10.2022 |
| 6 | Feil.Felin şəkillərinin tarixi inkişafı | 2 | 21.10.2022 |
| 7 | Felin təsriflənməyən formaları | 2 | 28.10.2022 |
| 8 | Zərf | 2 | 04.11.2022 |
| 9 | Köməkşi nitq hissələri.Qoşma. Bağlayıcı | 2 | 11.11.2022 |
| 10 | Ədat .Modal sözlər və nida | 2 | 18.11.2022 |
| 11 | Tarixi sintaksis.Söz birləşmələri | 2 | 25.11.2022 |
| 12 | Məqsəd və intonasiyaya görə sadə cümlə. Cümlə üzvləri | 2 | 02.12.2022 |
| 13 | Cümlə. Sadə cümlənin struktur-semantik təkamülü. Bir baş üzv əsasında formalaşan cümlələr | 2 | 09.12.2022 |
| 14 | Tabesiz mürəkkəb cümlə | 2 | 16.12.2022 |
| 15 | Tabeli mürəkkəb cümlə | 2 | 23.12.2022 |
| | **Cəmi:** | **30s.** | |

**Fənn müəllimi:** **Dos.Q.İ.Əsgərova**